# İki Səməd, iki tale

**Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biri kimi tanınan, çoxcəhətli yaradıcılığı ilə seçilən, o taylı-bu taylı Azərbaycanın görkəmli şairi Kərim Məşrutəçi Sönməzin həyata poetik baxışlarını, ədəbi ideallarını müəyyənləşdirən incə bir amil mövcuddur ki, bu da onun öz sələflərinin, müasirlərinin yaradıcılığına bəslədiyi qayğı və diqqətli münasibətidir.**

Şairin əsərlərində iki kövrək hiss də özünü qabarıq şəkildə göstərir. Bu bir şair kimi onun həm çox qədirbilən, insanları dəyərləndirməyi bacaran, həm də hər bir amilə





obyektiv yanaşma tərzinə malik olmasından-dır. Bu xüsusiyyətləri K.M.Sönməzin o taylı-bu taylı qələm dostlarına, görkəmli adamlara həsr etdiyi "Həsrət çələngi" silsiləsindən olan bütün əsərlərində öz əksini tapmışdır.

K.M.Sönməzin qocaman şair Həbib Sahirin vəfatı münasibətilə qələmə aldığı "Bu ölüm dərs oldu dirilər üçün" (1976 (1355), "Səhənd kimdir?" (1979 (1358), xalq şairi Nəbi Xəzriyə ünvanladığı "Şair dünyanındır" (1981 (1360), "Şair və onun dövrü" (1982 (1361), "Dalğalarda" ("Dalğalarda görüş barı") (1984 (1363), xalq şairi Bəxtiyar Vahabzadəyə ithaf etdiyi "Əlində" (1984 (1363), Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 80 illiyi münasibətilə qələmə aldığı "Heydərbaba şairi" (1985 (1364), xalq şairi Səməd Vurğunu və uşaq yazıçısı Səməd Behrəngini xatırladan "İki Səməd, iki tale" (1986 (1365), "Zəlimxan Yaquba", "Xalidə xanımın ad günü münasibətilə ", "Mustafa İskəndərzadəyə" (1988 (1367) və başqa şeirləri, 1987-ci ildə Bakıya səfəri ilə əlaqədar təəssüratlarını özündə əks etdirən "Həsrət çələngi" (2002 (1381) sərlövhəli kitabı bu qəbildən olan əsərlərdəndir.

"K.M.Sönməzin "Həsrət çələngi" silsiləsindən olan şeirləri Cənubda heç vədə solmayan milli düşüncənin parlaq sənədidir. Cənub xalqının ideallarının aydın və düzgün ifadəsi baxımından ona bənzər ikinci bir şair göstərmək çətindir".

Bu mövzuda yaranmış ədəbi nümunələr içərisində K.M.Sönməzin böyük tarixə, şanlı keçmişə malik olan Azərbaycan xalqının faciəsi, kədəri və sevincini əks etdirən "İki Səməd, iki tale" adlı şeirinin də xüsusi mövqeyi vardır. Şairin XX əsrin səksəninci illərində qələmə aldığı ədəbi nümunələr içərisində bu əsərin yeri böyükdür.

"İki Səməd, iki tale" adlı şeir Azərbaycan SSR xalq şairi, Elmlər Akademiyasının akademiki, əməkdar incəsənət xadimi, SSRİ Dövlət mükafatı laureatı, Səməd Vurğun (1906-1956) ilə Güney Azərbaycanın odlu vətənpərvəri, qüdrətli nasiri, usta pedaqoqu, məharətli tərcüməçisi, görkəmli folklorşünası və təcrübəli siyasi xadimi Səməd Behrəngiyə (1939-1968) həsr edilmişdir. K.M.Sönməzin o taylı-bu taylı iki sənətkarın simasında bir xalqın ikili taleyindən yazmaq qadağalar və hədələrlə üzləşdiyi bir dövrdə ondan söz açmaq cəsarəti oxucularında böyük rəğbət hissi doğurmuşdur.

Şairin istifadə etdiyi bədii vasitələr hər iki şəxsiyyətin təqdimində uğurlu ədəbi tapıntılar kimi qiymətlidir:



*İki Səməd bir torpağın övladı,*
*Yaratdılar bir əsrin insanıyçın.*
*Birisinin şah əsəri: həyatı,*
*Biri məşəl oldu söz karvanıyçın.*

K.M.Sönməz bu əsərdə hər iki qələm sahibinin həyatını oxucusunun gözləri qarşısında canlandırır. S.Vurğunun şəxsiyyətinin, əməyinin Quzey Azərbaycanda dəyərləndirildiyindən, yüksək qiymətləndirildiyindən nə qədər sevinir, qürur duyursa, S.Behrənginin xalq naminə yüksək əməllərinə görə Güney Azərbaycanda şah cəlladları tərəfindən öldürülərək Araz çayına atılmasından bir o qədər kədərlənir və bu halı ürək ağrısı ilə qələmə alır:

*İki Səməd vurğun oldu bu xalqa,*
*Hər ikisi xalq eşqilə yaratdı.*
*Alqışladı birin, el dalğa-dalğa,*
*Birin dalğalara, əğyarlar atdı.*

Şair öz oxucularını mənalar aləminə qanadlandırır. Burada xalqın tarixi taleyi, mənəviyyat aləmi, qurtuluş idealı əsas tərənnüm obyektinə çevrilir:

*İki çinar bu torpaqda boy atdı,*
*Hər ikisi kölgə saldı başlara.*
*Biri məndə söz pərisin oyatdı,*
*Biri - dirçəl dedi: vətəndaşlara.*

Bir vətənin övladları olan S.Vurğunu və S.Behrəngini daim qəlbində yaşadan K.M.Sönməz birincinin onda söz pərisini oyatdığını böyük iftixarla söylədiyi kimi, ikincinin də xalqı inkişafa, yüksəkliyə çağırdığından qürur duyur.

S.Vurğunun yaradıcılığı ölkəmizin sərhədlərini aşaraq dünyanın bir sıra ölkələrində, eləcə də qonşu İranda da milyonların könül həmdəminə çevrilmişdir.

O taylı-bu taylı Azərbaycan şairi Əli Tudə "Vətənpərvər sənətkarın ünsiyyət dünyası" adlı məqaləsində yazırdı ki, Səməd Vurğunun ilhamlı sənətinin mübariz səsi hələ müharibədən əvvəl təlatümlü Arazın şahə qalxan dalğalarını yara-yara o taya da çatmışdı.

Yaxşı yadımdadır, müharibə illərində şairin ərəb əlifbası ilə çap olunmuş kitabları cənublu oxucular arasında çatışmasa da, oradakı şeirlər yalnız bir dəfə, uzaqbaşı iki dəfə oxunmaqla əhali içərisində əzbərlənirdi. Həyat nəfəsli misralar öz dönük talelərindən küsən zəhmətkeş insanların dərdli ürəklərində yaşamağa həvəs, mübarizəyə təşəbbüs, gələcəyə inam doğururdu.

S.Behrəngi özü də S.Vurğuna, onun yaradıcılığına böyük rəğbət bəsləyirdi. Onun şeirlərinin vurğunu idi.

Əsəd Behrəngi "Qardaşım Səməd Behrəngi" adlı kitabında yazır:

"Səmədin böyük qayğısı ilə artıq Mirzə Ələkbər Sabirin, Mirzəli Möcüzün, Səməd Vurğunun, Şəhriyarın qələmlərinə mənsub olan əsərlər bizim ailədə həmişə yolu gözlənilən qonaqlara çevrildilər. Səməd Vurğunun ailəyə yol tapan şeirləri həmişə xüsusi məhəbbətlə qarşılanırdı. Səməd sonralar təəssüflə qeyd edirdi ki, Vurğun başqa şairlər kimi təbliğ edilsəydi, mənim həmvətənlərimin sevimli sənətkarlarından biri olardı".

Şəhriyarın "Heydərbaba"sı: müəllifin əlindən tutub, onu bəlkə də bütün dünyada gəzdirdi: Bunun bir səbəbi də şübhəsiz ki, şairin bu əsəri öz doğma ana dilində yazması idi. Amma elə bu fonda Səməd Behrəngi başqa bir fikir də irəli sürür "Şəhriyardan qabaqkı və Şəhriyardan sonrakı şairlərin əsərləri xalqın əlində deyil, onların nəşr və yayılmasına imkan yoxdur. Soruşuram: Əgər Vurğunun əsərlərinə "Heydərbaba"can nəşr və çap imkanı versəydilər Şəhriyarı təqlid edənlər və onun ardınca gedənlər yenə bu qədər olardımı?".

S.Behrənginin problemə münasibətini bildirmək üçün tapdığı məntiqə heyran qalmamaq mümkün deyil. Burada hansısa bir alimin "Məni kəhkəşanın əzəmətindən çox, onun ölçülərini müəyyənləşdirən insan zəkası heyran qoyur" sözləri yada düşür.

Bu fikir S.Behrənginin Azərbaycan poeziyasının iftixarı S.Vurğuna, onun şəxsiyyətinə, yaradıcılığına bəslədiyi münasibətdən doğmuşdur.

Güney Azərbaycanda ilk dəfə olaraq Azərbaycan dilinin tədrisi üçün kitablar yazan, kənd-kənd gəzib ana dili dərslərini keçən, öz şəxsi vəsaiti hesabına kitab alıb uşaqlara paylayan, pəhləvi rejiminin təzyiqlərinə baxmayaraq, yorulmadan yazıb-yaradan S.Behrəngi S.Vurğunun "Azərbaycan" şeirinə xüsusilə məftun idi.

Ə.Behrəngi xatırladır ki, "Mən Səmədin bu şeiri dəfələrlə "Milli himn" adlandırdığının şahidi olmuşam. Şeirin bəzi parçalarını elə hərarət və ehtirasla oxuyurdu ki, ona qibtə etməmək mümkün deyildi.

Quzey Azərbaycan ədəbiyyatının təbliğində də böyük əməyi olan S.Behrəngi məqalələrinin birində S.Vurğunun yaradıcılığından söz açaraq yazır ki, "S.Vurğunun istər məhəbbət, istərsə də ictimai-siyasi lirikası öz sadəliyi, aydınlığı, yüksək sənətkarlığı ilə əsrlər boyu yaşayacaqdır".

***İki Səməd könül verdi bir elə,***
***Hər ikisi bir yol üçün dayaqdır.***
***Biri dönmüş əzəmətli heykələ,***
***Birisinin adın çəkmək yasaqdır.***

O qısa ömrünü bütünlükdə xalqına həsr etmiş S.Behrəngi uşaqların şirin arzu və xəyallarını, gülüşlərini, dərdlərini, göz yaşlarını qələmə alaraq onlar üçün gözəl hekayələr, nağıllar yazdı. Bir müəllim və yazıçı kimi vətən övladlarına həmdərd oldu.

"Xalq şairimiz Səməd Vurğun yazırdı: "Biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaq üçün yazdığımız zaman, insan üçün yazdığımızı unutmamalıyıq". "Bax, Səməd Behrəngi də belə sadə, aydın dildə yazırdı".

29 illik həyatında öz xalqına böyük ədəbi irs qoyub getmiş S.Behrəngini müasirləri "Zülmətdə işıq, qaranlıq səmada parlaq ulduz" adlandırırdılar.

Hər iki qələm sahibi - S.Vurğun və S.Behrəngi sağlığında da, dünyasını dəyişdikdən sonra da o taylı-bu taylı Azərbaycan xalqı tərəfindən, eləcə də Azərbaycanın hüdudlarından kənarda da sevilmiş, sevilir və böyük ehtiramla yad edilirlər.

Bir vətənin övladı olan bu iki sənətkarın hər ikisinin qələminin kəsərli, özlərinin insanlara arxa-dayaq olduğu, bir amal üçün yaşayıb-yaratdıqları, hətta eyni adı daşıdıqları halda, talelərinin bir-birindən fərqli olması K.M.Sönməzi sarsıdır:

***İki ürək bir sinədə döyündü,***
***Hər ikisi bir gövdəyə qan verdi.***
***Biri çatdı arzusuna, öyündü,***
***Biri, azad həyat! - dedi, can verdi.***

Sənətkarın bu şeirdə öldüyünü bildirən müəllif gələcəyə ümidli baxışı ilə alqışlanır. Haqqın öz yerini tapacağına oxucusunda inam yaradır:

***Qoy birini hər evdə, hər obada***
***Alqışlasın həm indi, həm gələcək.***
***Birisinin arzu gülü solsa da,***
***Əminəm ki, bir gün çiçəklənəcək!***

Bu nikbin baxış, bu yüksək əhval-ruhiyyə K.M.Sönməz poeziyası üçün ümdə keyfiyyətlərdən biridir.

Görkəmli alim, tənqidçi Abbas Zamanov 1985-ci ildə doktor Cavad Heyətə yazdığı məktubda K.M.Sönməzin "İki Səməd, iki tale" adlı şeirini belə qiymətləndirmişdir:

"Bu şeiri hamımız bəyəndik. Bu adicə bir şeir deyildir, poetik bir dastandır, bir dastan ki, böyük bir xalqın faciəsi, sevinci və kədəri onda öz əksini tapmışdır. Elə bir dastan ki, ürəyimizdən keçənlər ustad şair ilhamı ilə ümumiləşdirilib rəsm edilmişdir ".

O taylı-bu taylı Azərbaycanımızın görkəmli sənətkarları Səməd Vurğun və Səməd Behrənginin bir-birindən fərqli olan ikili taleyini özündə əks etdirən, hiss-həyəcansız oxunması mümkün olmayan, hər bir misrası belə qəlbləri riqqətə gətirən K.M.Sönməz qələminin məhsulu olan "İki Səməd, iki tale" ünvanlı şeir xüsusi dəyəri olan bir sənət nümunəsidir.

**Lətifə Mirzəyeva**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi**